

## RÖVŞƏN TƏNHA XƏLFƏLİ

**Rövşən Bəxtiyar oğlu Mədətov** 1997-ci ildə Rusiya Federasiyasının Nijniy Novqorod şəhərində anadan olmuşdur.

2015-ci ildə Ağstafa rayon Rövşən Əkbərov adına Korxəlfəli kənd tam orta məktəbi bitirmişdir.

"Yadıma düşürsən" şeiri ilk qələm məhsuludur.





***

Məhəbbət adası qərq olur suya,
Sevənlər boğuldu dərdlər içində...
Qarşıya qoyuldu min cürə əngəl,
Rahatlıq tapmadıq şərtlər içində...

Qərənfil sevənlər nədən çoxalıb?
Hərənin əlində bir dəstə gördüm...
Yuxuma gəlmişdin, solğun bənizlim,
Oyandım güzgüdə bir xəstə gördüm...

Yükümmü ağırdı, qəlbimmi zəif?
Nəfəsim çatmayır, sıxılıram mən...
Ünvansız yollarda səbəbsiz gəzib
Əllərim üzümdə, yıxılıram mən...

Ümidlər boğulur göz yaşlarımda,
Gözümdən min bulaq yan-yana axır...
Əllərim üzülüb daha dünyadan,
Bilmirəm Əzrail hayana baxır...

Sanırdım o məni yadına salmır,
Bəlkə mən yatmışam fil qulağında...
Deyirlər: – Ağlayır hər gecə mənsiz,
Adım hey hallanır dil-dodağında!

***

Arzum budur sənə, gülüm:
– Hər istəyin ola sənin...
Qəm çiçəyin açılmaya,
Qəm çiçəyin sola sənin...
Eşqi mənə dayaq idi,
Dayaqsızam, yıxın məni...
Hey adını çəkin onun,
Hey ağladın, sıxın məni...

Ümidi yoxsul insanın
Yaşamağı möcüzədir...
Həsrət ilə yaşayanlar –
Ölüm ilə üz-üzədir!

***

Gəzdim eşqin hər yolunda –
Gah sağında, gah solunda...
Özgə gördüm yar qolunda –
Anladım ki, sevən çoxdu,
Əhdə vəfa qılan yoxdu...

Ümidlərim gültək solur –
Göz yaşlarım üzdə donur...
Bir söz ilə son qoyulur –
Böyük eşqə, məhəbbətə...
Necə dözüm bu həsrətə?!





Qiyamətdi yarsız ömür –
Qəlbim yandı, oldu kömür...
Hicran məni dərdə gömür –
Yaşamıram bir an sənsiz,
Mən öləram, inan, sənsiz!

***

Mən səni bu qədər niyə sevirəm?
Gözəlliyə qalsa, çoxusunda var...
Baxışın ceyranın baxışlarında,
Qoxun da güllərin qoxusunda var...

Məndən uzaqlarda yaşayan qadın,
De: – Həsrət sıxırmı, çəkirsənmi qəm?
Arzular, ümidlər düşüb yadına
Yaralı qəlbinə olurmu məlhəm?!

Zarafat bir yana, ciddi deyirəm,
Gəl aç qulağını, dinlə məni sən:
– Başını qoyaraq sinəmin üstə
Qəlbimin səsini dinləməlisən!

***

Gah zəhər, gah qənd eyləyir,
Qəlbi qəlbə bənd eyləyir,
Hiylə gəlir, fənd eyləyir...
Bu dünya sınayır bizi!
Qönçələri qar dondurur,
Nərgizləri gün soldurur,
Lalələri şeh doludur...
Bu dünya sınayır bizi!

Bəxtimizə dərd bitişir,
Dərddən yeni dərd yetişir,
Ürək yanır, ciyər bişir...
Bu dünya sınayır bizi!

Göydən yerə dərd ələnir –
Kasıb varlıdan dilənir,
Dağ başına qar çilənir...
Bu dünya sınayır bizi!

Misralarım qaramatdı,
Hər yazanda yaram artdı...
Rövşən bu dünyaya matdı –
Bu dünya sınayır bizi!